## Seleksiya nailiyyətləri haqqında

AZƏRBAYCAN RESPUBLIKASININ QANUNU

Bu Qanun Azərbaycan Respublikasında seleksiya nailiyyətlərinin qeydiyyatı, istifadəsi və mühafizəsinin hüquqi əsaslarını müəyyən edir.

### I fəsil
### ÜMUMİ MÜDDƏALAR

#### **Maddə 1.** Əsas anlayışlar

Bu Qanunda istifadə edilən əsas anlayışlar aşağıdakılardır:

**seleksiya nailiyyətləri** — seleksiya işi nəticəsində yaradılmış, cəmiyyət üçün faydalı bitki sortları, heyvan cinsləri, onların hibridləri, xəttləri, krossları və klonları;

**bitki materialı** — sortu yaymaq məqsədi daşıyan bitki toxumları, soğanaqları, yumruları, çubuqları və digər hissələri;

**damazlıq ehtiyatı (məhsulu, materialı)** — dövlət sertifikatına malik, damazlıq məqsədilə yetişdirilən heyvanlar və onların toxumları, yumurtaları, rüşeymləri;

**seleksiya nailiyyətlərinin dövlət reyestri** — müəlliflik və patent hüququ mühafizə olunan bitki materialı və damazlıq ehtiyatlarının dövlət qeydiyyat reyestri;

**mühafizə olunan seleksiya nailiyyəti** — dövlət reyestrinə daxil olan, petentləşmiş bitki materialı və damazlıq ehtiyatı;

**ərizəçi** — seleksiya nailiyyətinə patent verilməsi üçün müvafiq dövlət orqanına müraciət edən hüquqi və ya fiziki şəxs;

**patent** — seleksiya nailiyyətinin ixtira kimi qəbul edilməsini, mühafizə olunmasını və bu ixtira üzərində müstəsna hüququ təsdiq edən sənəd;

**müəllif** — seleksiya nailiyyətini yaradan fiziki şəxs və ya şəxslər qrupu;

**lisenziya müqaviləsi** — patent sahibi ilə fiziki və hüquqi şəxslər arasında seleksiya nailiyyətindən istifadə etmək haqqında tərtib olunmuş hüquqi akt.

#### **Maddə 2.** Seleksiya nailiyyətləri haqqında Azərbaycan Respublikasının qanunvericiliyi

Seleksiya nailiyyətləri haqqında Azərbaycan Respublikasının qanunvericiliyi bu Qanundan və ona uyğun olaraq qəbul edilən digər normativ hüquqi aktlardan ibarətdir.

#### **Maddə 3.** Seleksiya nailiyyətlərinin patent qabiliyyəti şərtləri

Patent üçün ərizə verilən seleksiya nailiyyətləri aşağıdakı şərtlərə cavab verməlidir:

a) yenilik;

Ərizə verilən tarixə qədər bu və ya digər şəkildə Azərbaycan Respublikasının ərazisində tarla bitkiləri üçün bir il, üzüm sortları, dərman və bəzək bitkiləri, meyvə və meşəağacları, heyvan cinsləri üçün dörd il, xarici

dövlətlərin ərazisində müvafiq olaraq dörd il və altı il müddətində başqa şəxsə satılmayıb və ya istifadəyə verilməyibsə, seleksiya nailiyyəti yeni hesab olunur.

b) fərqlilik;[1]

Seleksiya nailiyyəti ərizə verilən tarixə qədər digər məlum seleksiya nailiyyətlərindən aydın fərqlənməlidir.

Məlum seleksiya nailiyyətinin rəsmi kataloqda, məlumat fondunda və ya nəşrlərin birində dəqiq təsviri olmalıdır.

Patent alınmış seleksiya nailiyyəti patent üçün ərizə verilən tarixdən məlum hesab olunur.

Seleksiya nailiyyətlərinin səciyyəvi xüsusiyyətlərinin fərqlilik əlamətləri müqayisəyə və dəqiq təsvir etməyə imkan verməlidir.[2]

v) oxşarlıq;

Seleksiya nailiyyətlərinin əlamətləri çoxalma xüsusiyyətlərinə görə yarana biləcək bəzi fərqlər istisna olmaqla genotip və fenotip cəhətdən oxşar olmalıdır.

q) sabitlik;

Seleksiya nailiyyətləri dəfələrlə artırıldıqdan sonra və ya artırma mərhələsinin sonunda öz təsvirinə uyğun olmalıdır.

Seleksiya nailiyyətləri ekoloji tarazlığı pozmamalı, ətraf mühitin mühafizəsi üzrə müəyyən edilmiş tələblərə cavab verməlidir.

### M a d d ə 4 . **Seleksiya nailiyyətlərinin obyektləri və subyektləri**[3]

Seleksiya nailiyyətlərinin obyektləri bitki sortları, heyvan cinsləri, onların hibridləri, genotipləri, xəttləri, krossları, klonları, toxumları, yumurtaları, rüşeymləri və digər bitki materialları və damazlıq ehtiyatlarıdır.

Seleksiya nailiyyətinə sahiblik edən və seleksiya işi aparan bütün hüquqi və fiziki şəxslər seleksiya nailiyyətlərinin subyektləridir.

### **M a d d ə 5 .** Seleksiya nailiyyətlərinin patent mühafizəsi üzrə dövlət orqanı

Azərbaycan Respublikasında seleksiya nailiyyətlərinin patent mühafizəsini Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən səlahiyyətli dövlət orqanı (bundan sonra səlahiyyətli orqan) həyata keçirir.

## I I f ə s i l
## SELEKSİYA NAİLİYYƏTLƏRİNİN EKSPERTİZASI, SINAĞI VƏ TƏSDİQ OLUNMASININ ÜMUMİ QAYDALARI

### **M a d d ə 6 .** Patent üçün ərizə verilməsi hüququ

Patent üçün ərizə verilməsi hüququ ilk növbədə seleksiya nailiyyətinin müəllifinə və ya onun hüquqi varisinə məxsusdur.

Seleksiya nailiyyəti müştərək yaradılıbsa, yaxud ərizəçilər müəlliflərin hüquqi varisləridirsə, onda ərizə bir neçə şəxs tərəfindən verilir və onların arasındakı münasibətlər bağlanmış müqavilə ilə tənzimlənir.

Seleksiya nailiyyəti müəllif tərəfindən qulluq vəzifəsini yerinə yetirilən vaxt yaradılıbsa və müəlliflə işəgötürən arasında bağlanmış müəlliflik müqaviləsində başqa şərtlər nəzərdə tutulmamışsa, patent üçün ərizə verilməsi hüququ işəgötürənə məxsusdur. Bu zaman müqavilədə müəllifin (müəlliflərin) seleksiya nailiyyətindən istifadəyə görəmükafatlandırılması nəzərə alınmalıdır.

Əgər işəgötürən ilə müəllif arasında patentin işəgötürənə verilməsi barədə müəlliflik müqaviləsi bağlanmamışsa və ya işəgötürən müqavilə şərtlərini pozarsa, patent alınması hüququ müəllifdə qalır.

Patent üçün ərizə verilməsi hüququ müəllifin ərizəsində göstərilən başqa şəxsə də verilə bilər. Belə halda müəllifin ərizəsi səlahiyyətli orqana patent verilməsi barədə qərar qəbul edilməzdən əvvəl daxil olmalıdır.

Xarici dövlətlərin hüquqi şəxsləri və vətəndaşları, Azərbaycan Respublikası ilə bu dövlətlər arasında seleksiya nailiyyətlərinin sınağı və mühafizəsi üzrə beynəlxalq müqavilələrin bağlandığı halda patent üçün ərizə vermək hüququna malik olurlar.

Səlahiyyətli orqanın əməkdaşlarına bütün işlədikləri müddət ərzində və işdən azad olduqdan sonra üç il müddətində patent üçün ərizə vermək hüququ verilmir.

Hər seleksiya nailiyyəti üçün ayrıca ərizə verilir.

Ərizə sənədləri Azərbaycan Respublikasının dövlət dilində və ya başqa dildə təqdim oluna bilər. Sənədlər başqa dildə təqdim olunarsa, ərizəyə sənədlərin Azərbaycan dilində tərcüməsi əlavə edilir.

Patent almaq üçün aşağıdakı sənədlər təqdim olunur:

seleksiya nailiyyətinə patent verilməsi üçün ərizə;

seleksiya nailiyyətinin təsvirini və əlamətlərini əks etdirən anket;

tələb olunan rüsumların ödəniş qəbzi;

seleksiya nailiyyəti nümunəsinin Azərbaycan Respublikasının Milli Genbankında saxlanmağa qəbulu haqqında arayış;

genetik pasport;[4]

Ərizə sənədlərinin tərtib olunma və baxılma qaydaları müvafiq qaydada təsdiq edilmiş təlimatla müəyyən edilir.

*Patent almaq üçün zəruri olan sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda, həmin sənədlər ərizəçidən tələb edilmir. Belə sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi ərizəçinin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya ərizəçi tərəfindən təmin edilir.*[5]

### **M a d d ə 7 .** Seleksiya nailiyyətinin adı

Patent üçün ərizə verilən seleksiya nailiyyətinə müəllifin təklif etdiyi və səlahiyyətli orqan tərəfindən qəbul edilmiş ad verilir.

Seleksiya nailiyyətinin adı, onu müəyyənləşdirməyə imkan verməklə bərabər oxşar botaniki və zooloji növə aid mövcud adlardan fərqlənməli, qısa olmalı və asan seçilməlidir.

Azərbaycan Respublikasına və xarici ölkələrin birinə eyni seleksiya nailiyyətinə patent üçün ərizə verilərsə, seleksiya nailiyyətinin adı eyni saxlanılır.

Müəllif tərəfindən təklif olunan ad qoyulmuş tələblərə uyğun gəlmirsə, müəllif səlahiyyətli orqanın təklifi ilə adı dəyişməlidir.

Seleksiya nailiyyətinin adı ərizəçinin xahişi ilə patent verilənə qədər dəyişdirilə bilər.

### **M a d d ə 8 .** Seleksiya nailiyyətinin ilkinliyi

Seleksiya nailiyyətinin ilkinliyi sifarişin səlahiyyətli orqana daxil olduğu tarixdən hesablanır.

Eyni seleksiya nailiyyətinə dair iki və ya daha çox ərizə daxil olarsa, ilkinlik hüququ birinci daxil olan ərizəyə verilir.

Seleksiya nailiyyətinə ərizə Azərbaycan Respublikasının səlahiyyətli orqanına verilməzdən əvvəl xarici ölkələrin birinə də verilərsə, ilkinlik hüququ birinci ərizənin verildiyi tarixdən hesablanır və 12 ay qüvvədə qalır.

Belə hallarda ərizəçi səlahiyyətli orqana birinci ərizə sənədlərinin, həmin ölkənin müvafiq orqanı tərəfindən təsdiq olunmuş surətini və ilkinlik hüququnun tanınmasıtarixini göstərməlidir.

### **M a d d ə 9 .** Patent üçün ərizə sənədlərinin ilkin ekspertizası

Patent üçün ərizə sənədlərinin ilkin ekspertizası bir ay müddətində keçirilir, lazımi sənədlərin olub-olmaması *(bu Qanunun 6-cı maddəsinin on ikinci hissəsinin tələbləri nəzərə alınmaqla)* və onların qoyulmuş tələblərə uyğun gəlməsi müəyyənləşdirilir.[6]

Ekspertiza aparılan müddətdə ərizəçi sənədlərdə əlavələr, düzəlişlər və dəqiqləşdirmələr aparmaq hüququna malikdir.

Müəyyən olunmuş müddətdə ərizəçinin günahı üzündən sənədlərdə lazımi dəqiqləşmələr aparılmazsa və ya çatışmayan sənədlər təqdim olunmazsa, ərizəyə baxılmır vəbu barədə sifarişçiyə məlumat verilir.

### **M a d d ə 10 .** Seleksiya nailiyyətinin yeniliyə görə ekspertizası

Qəbul edilmiş ərizə üzrə səlahiyyətli orqan tərəfindən təlimatlara uyğun seleksiya nailiyyətinin yeniliyə görə ekspertizası aparılır.

Marağı olan şəxslər ərizə haqda məlumat dərc edilən tarixdən altı ay müddətində səlahiyyətli orqana seleksiya nailiyyətinin yeniliyi barədə öz iddiasını bildirə bilərlər.

Səlahiyyətli orqan ərizəçiyə iddianın daxil olması haqda məlumat verir. Ərizəçi iddia ilə razılaşmadıqda, iddianın daxil olduğu tarixdən üç ay müddətində səlahiyyətli orqana dəlillərlə sübuta yetirilən etirazını bildirmək hüququna malikdir. Səlahiyyətli orqan əlavə təqdim olunan materiallara əsasən seleksiya nailiyyətinin yeniliyi haqda qərar qəbul edir və marağı olan şəxslərə bu barədə məlumat verir.

Seleksiya nailiyyəti yeniliyin şərtlərinə uyğun gəlmirsə, sınaqdan çıxarılır.

### **M a d d ə 11 .** Seleksiya nailiyyətinin fərqliliyə, oxşarlığa və sabitliyə görə sınağı

Seleksiya nailiyyətinin fərqliliyə, oxşarlığa və sabitliyə görə sınağı müvafiq qaydada təsdiq edilmiş təlimatlara uyğun aparılır.

Ərizəçi müəyyən edilmiş müddətdə sınaq üçün tələb olunan miqdarda bitki materialları və damazlıq ehtiyatları təqdim etməyə və təyin edilmiş rüsumları ödəməyəborcludur. Damazlıq ehtiyatlarının sınağı Azərbaycan Respublikasının dövlət damazlıq xidməti orqanı ilə birlikdə aparılır.

Ərizəçi ekspertiza və sınağın nəticəsinə görə çıxarılan qərarla razılaşmadıqda, bu qərarı alan tarixdən üç ay müddətində səlahiyyətli orqanın apelyasiya komissiyasına müraciət edə bilər. Apelyasiya komissiyasının fəaliyyəti müvafiq qaydada təsdiq edilmiş əsasnamə ilə tənzimlənir.

Ekspertiza və sınaq nəticəsində seleksiya nailiyyəti təsdiq olunarsa, səlahiyyətli orqan patent vermək haqqında qərar qəbul edir.

### **M a d d ə 1 2 .** Seleksiya nailiyyətinin qeydiyyatı

Patent verilməsi haqqında qərar qəbul edilmiş seleksiya nailiyyəti barədə dövlət reyestrində səlahiyyətli orqan tərəfindən müəyyən edilən qeydiyyatlar aparılır.

Genetik modifikasiya olunmuş bitkilərin genetik materiallarının dövlət reyestrinə daxil edilməsi qadağandır.[7]

### **M a d d ə 1 3 .** Seleksiya nailiyyətləri barədə məlumatların dərc edilməsi

Səlahiyyətli orqanın rəsmi bülletenində seleksiya nailiyyətlərinin qeydiyyatına, istifadəsinə və mühafizəsinə dair səlahiyyətli orqan tərəfindən müəyyən edilən məlumatlar dərc edilir.

## I I I f ə s i l
## MÜƏLLİFLİK VƏ PATENT HÜQUQU

### **M a d d ə 1 4 .** Müəllif

Seleksiya nailiyyətini yaradan şəxs həmin nailiyyətin müəllifi sayılır. Seleksiya nailiyyəti bir neçə şəxs tərəfindən yaradılmışsa, onların hamısı müəllif hesab olunurlar.

Seleksiya nailiyyətinin yaranmasında şəxsi yaradıcı xidməti olmayan və müəlliflərə yalnız texniki, texnoloji, təşkilati və maddi köməklik göstərmiş şəxslər müəllif sayıla bilməzlər.

Səlahiyyətli orqan tərəfindən seleksiya nailiyyətlərinin müəlliflərinə müəlliflik şəhadətnaməsi verilir.

Müəlliflik şəhadətnaməsi müəllifə seleksiya nailiyyətindən istifadə olunmasına görə patent sahibindən haqq almaq hüququ verir.

Müəlliflik hüququ toxunulmazdır və özgəninkiləşdirilə bilməz.

Müəlliflik hüququ Azərbaycan Respublikasının qanunvericiliyində müəyyən olunmuş qaydada vərəsələrə keçir.

**Maddə 15.** Patent sahibi

Dövlət reyestrinə daxil edilmiş seleksiya nailiyyətinin ərizəçisinə bir ay müddətində səlahiyyətli orqan tərəfindən patent verilir. Patent verilməsi haqqında ərizədə bir neçəərizəçi göstərilmişsə, onların adına bir patent verilir.

Şəhadətnamələrin və patentlərin verilməsi müvafiq orqan tərəfindən təsdiq edilmiş Əsasnamədə nəzərdə tutulan şərtlərlə və qaydada həyata keçirilir.

Maddə 16. **Patent sahibinin hüquqları**[8]

Patent, patent sahibinə seleksiya nailiyyətindən istifadə etməyə müstəsna hüquq verir və bu hüquq dövlət tərəfindən qorunur. Patent sahibinin razılığı olmadan seleksiya nailiyyətindən istifadə etməyə icazə verilmir.

Patentlə bağlı hüquqlar tamamilə və ya qismən Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunmuş qaydada özgəninkiləşdirilə bilər. Belə hallarda patent sahibi ilə müvafiq şəxslər arasında qanunvericiliklə müəyyən edilmiş qaydada bağlanmış müqavilə səlahiyyətli orqanda qeydiyyata alınır.

Seleksiya nailiyyətindən istifadə etmək üçün bütün hüquqi və fiziki şəxslər patent sahibindən aşağıdakı fəaliyyət növlərinə icazə almalıdır:

istehsala və təkrar istehsala;

artırma məqsədilə toxumu səpin kondisiyasına çatdırmağa;

satışa təklif etməyə;

satışa və digər ticarət dövriyyəsinə daxil etməyə;

Azərbaycan Respublikası ərazisindən ixrac etməyə;

Azərbaycan Respublikası ərazisinə idxal etməyə;

yuxarıda göstərilən məqsədlər üçün saxlanmaya.

Patent sahibinin icazəsi olmadan mühafizə olunan seleksiya nailiyyətinin təsərrüfat dövriyyəsi zamanı patent sahibinin hüququ həmin seleksiya nailiyyətindən əldə edilmiş bitki materiallarına və əmtəəlik heyvanlara da aid edilir.

Bitki sortlarının toxumları və heyvan cinslərinin damazlıq materialları ilə bu maddənin 3-cü hissəsindəki fəaliyyət növlərini həyata keçirmək üçün mühafizə olunan seleksiya nailiyyətinin patent sahibindən aşağıdakı hallarda da icazə alınmalıdır, əgər seleksiya nailiyyəti:

mühafizə olunan ilkin seleksiya nailiyyətinin irsi əlamətlərini özündə aydın əks etdirməklə digər sortların, cinslərin irsi əlamətlərini daşımırsa;

mühafizə olunan sortlardan, cinslərdən kəskin fərqlənmirsə;

mühafizə olunan seleksiya nailiyyətinin təkrar istehsalına ehtiyac olarsa.

İlkin sortun, cinsin əsas irsi əlamətlərini aydın əks etdirən, lakin ilkin sortdan, cinsdən kəskin fərqlənənlər sort, cins kimi qəbul olunur, əgər:

ilkin sortun, cinsin əsas irsi əlamətlərini özündə saxlamaqla onların genotip yaxud genotipik kombinasiyalarının əlamətlərini əks etdirərsə;

fərdi seçmə, mutantlardan seçmə, bekkross və gen mühəndisliyi kimi üsulların təsirindən əmələ gələn fərqlənmələr istisna olmaqla ilkin sortun, cinsin genotipinə yaxud genotiplər kombinasiyalarına uyğun olarsa.

Seleksiya nailiyyətindən aşağıdakı məqsədlər üçün istifadə edilərkən patent sahibinin hüququ pozulmuş hesab olunmur:

şəxsi və qeyri-kommersiya məqsədləri üçün istifadə;

təcrübə-sınaq məqsədləri üçün istifadə.

### **M a d d ə 17.** Mövcud seleksiya nailiyyətləri subyektlərinin hüquq və mənafelərinin qorunması

Bu Qanunun müddəaları "Seleksiya nailiyyətləri haqqında" Azərbaycan Respublikasının Qanunu qüvvəyə minənədək Azərbaycan Respublikasında yaradılmış seleksiya nailiyyətlərinin müəlliflərinə və patent sahiblərinə də şamil edilir.

### **M a d d ə 18.** Patentin fəaliyyət müddəti

Patentin fəaliyyət müddəti seleksiya nailiyyətinin dövlət reyestrində qeydiyyatdan keçdiyi tarixdən 20 il, üzüm sortları, bəzək bitkiləri, meyvə və meşə ağacları, heyvan cinsləri üçün 25 ildir.

Patentin fəaliyyət müddəti səlahiyyətli orqan tərəfindən 10 ilə qədər uzadıla bilər.

### **M a d d ə 19.** Patentin etibarsız hesab olunması

Hər bir şəxs patentin etibarsız sayılması barədə səlahiyyətli orqana ərizə ilə müraciət edə bilər.

Səlahiyyətli orqan ərizənin surətini patent sahibinə göndərir. Patent sahibi üç ay müddətində ərizədə göstərilən iradlara dəlillərlə əsaslandırılmış cavab verməlidir.

Səlahiyyətli orqan, tələb olunarsa, məsələnin həlli üçün əlavə sınaqlar keçirir və bir il müddətində müvafiq qərar qəbul edir.

Patent aşağıdakı hallarda etibarsız hesab olunur:

yenilik, fərqlilik, oxşarlıq və sahiblik şərtlərinə uyğun gəlməyən seleksiya nailiyyətinə verilmişsə;

patent almağa hüquqi əsası olmayan şəxsə verilmişsə.

### **M a d d ə 20.** Patentin ləğv edilməsi

Patent aşağıdakı hallarda ləğv edilə bilər:

patent sahibinin ərizəsinə əsasən;

seleksiya nailiyyəti oxşarlıq və sahiblik əlamətlərini itirdikdə;

patent sahibi müəyyən edilmiş müddətdə səlahiyyətli orqanın təklifi ilə seleksiya nailiyyətinin əlamətlərinin saxlanılmasını yoxlamaq üçün bitki və damazlıq materialları, lazımi sənədlər və məlumatlar vermədikdə və yaxud bu məqsədlə yerlərdə yoxlama aparmağa şərait yaratmadıqda;

patent sahibi müəyyən olunmuş müddətdə patent qüvvədə qalması üçün rüsum ödəmədikdə.

## I V   f ə s i l
## SELEKSİYA NAİLİYYƏTLƏRİNİN MÜHAFİZƏSİ

### **M a d d ə   2 1 .** Seleksiya nailiyyətinin qorunub saxlanması

Patent sahibi patentin qüvvədə olduğu müddətdə seleksiya nailiyyətini elə qoruyub saxlamağa borcludur ki, seleksiya nailiyyəti yarandığı tarixdə təsvir edildiyi əlamətləri olduğu kimi saxlasın.

Patent sahibi səlahiyyətli orqanın tələbi ilə nəzarət-sınaq işləri aparmaq üçün bitki materialları və damazlıq ehtiyatları göndərməyə və yerlərdə yoxlama aparmaq üçün şərait yaratmağa borcludur.

### **M a d d ə   2 2 .** Seleksiya nailiyyətlərinin müvəqqəti mühafizəsi

Ərizənin səlahiyyətli orqana daxil olduğu tarixdən patent verilənədək ərizəçiyə seleksiya nailiyyətinin müvəqqəti mühafizəsi hüququ verilir.

Müvəqqəti mühafizənin qüvvədə olduğu müddətdə seleksiya nailiyyətindən yalnız elmi və təcrübə-sınaq məqsədləri üçün istifadə edilə bilər.

## V   f ə s i l
## SELEKSİYA NAİLİYYƏTLƏRİNDƏN İSTİFADƏ

### **M a d d ə   2 3 .** Lisenziya müqaviləsi

Patent verilmiş seleksiya nailiyyətlərindən istifadə lisenziya müqaviləsi əsasında həyata keçirilir.

Lisenziya müqaviləsinə görə patent sahibi açıq və ya məcburi lisenziyada seleksiya nailiyyətindən istifadə hüququnu haqqı ödənilməklə başqa şəxsə (lisenziata) verə bilər.

Açıq lisenziyada patent sahibi seleksiya nailiyyətindən istifadə hüququnun müəyyən hissəsini özündə saxlamaqla, qalan hissəsini lisenziatın müstəsna istifadəsinə verir.

Məcburi lisenziyada patent sahibinin seleksiya nailiyyətini patentindən irəli gələn bütün hüquqları, o cümlədən lisenziyanı üçüncü şəxslərə vermək hüququ saxlanılır.

Patent sahibi patent hüququnu birdəfəlik satırsa, seleksiya nailiyyətindən istifadə hüququnu birdəfəlik itirir.

Lisenziya müqaviləsi yazılı formada bağlanır və müvafiq qaydada səlahiyyətli orqanda qeydə alındıqdan sonra qüvvəyə minir.

Lisenziya müqaviləsinin hüquqi şərtləri və tərəflərin məsuliyyəti Azərbaycan Respublikasının qanunvericiliyi ilə tənzimlənir.

### **M a d d ə   2 4 .** Açıq lisenziya

Patent sahibi səlahiyyətli orqanın rəsmi bülletenində seleksiya nailiyyətinin istifadəyə verilməsi barədə bəyanat dərc edə bilər. Patent sahibi ilə lisenziya müqaviləsi

bağlayan hər bir şəxs açıq lisenziyadan istifadə etmək barədə səlahiyyətli orqana rəsmi müraciət edir.

Səlahiyyətli orqan seleksiya nailiyyətinin istifadəsinə görə ödənilən haqqın miqdarını göstərməklə açıq lisenziyanın verilməsi barədə reyestrdə müvafiq qeydiyyatlar aparır.

### **M a d d ə 2 5 .** Məcburi lisenziya

Hər bir şəxs seleksiya nailiyyətinə məcburi lisenziya verilməsi barədə səlahiyyətli orqana müraciət edə bilər.

Səlahiyyətli orqan məcburi lisenziyanı aşağıdakı hallarda verə bilər:

məcburi lisenziyanan verilməsi haqqında ərizə patent verilən tarixdən üç il keçdikdən sonra daxil olduqda;

patent sahibi həmin şəxsin seleksiya nailiyyətindən istifadə etməsinə icazə vermədikdə və yaxud əlverişli şərtlərlə belə hüquqlar verməyə hazır olmadıqda;

məcburi lisenziya almaq istəyən şəxs sübut etdikdə ki, o, maliyyə və digər münasibətlərdə patent sahibinin hüquqlarından bacarıqla və səmərəli istifadə etməyə qadirdir.

Məcburi lisenziyada patent sahibinin seleksiya nailiyyətinin patentindən irəli gələn bütün hüquqları, o cümlədən lisenziyanı başqa şəxslərə vermək hüququ saxlanılır.

Məcburi lisenziya verilərkən lisenziat səlahiyyətli orqanın müəyyənləşdirdiyi haqqı patent sahibinə ödəməyə borcludur.

Səlahiyyətli orqanın tələbi ilə patent sahibi məcburi lisenziyanı alana münasib şərtlər və qiymətlərə kifayət miqdarda bitki materialı və damazlıq ehtiyatı verməyəborcludur.

Məcburi lisenziyanın fəaliyyət müddəti dörd ilə qədər müəyyənləşdirilir.

Məcburi lisenziyanın fəaliyyət müdəti artırıla bilər.

Məcburi lisenziyanın sahibi qoyulmuş şərtləri pozduqda lisenziya ləğv edilir.

### **M a d d ə 2 6 .** Seleksiya nailiyyətlərinin istehsalatda istifadəsi

Azərbaycan Respublikasında yalnız patentləşmiş və dövlət reyestrinə daxil edilmiş seleksiya nailiyyətləri istehsalatda istifadə edilə bilər.

Satılan bitki materialları və damazlıq ehtiyatları müvafiq dövlət orqanları tərəfindən keyfiyyət sertifikatları ilə təchiz olunmalıdır.

Sertifikat dövlət reyestrinə daxil edilmiş və rayonlaşdırılmış seleksiya nailiyyətlərinə verilir.

### **M a d d ə 2 7 .** Rüsumlar

Səlahiyyətli orqan aşağıdakı xidmətlərə görə rüsumlar alır:

patentləşmə üçün sifariş verilmiş seleksiya nailiyyətlərinin ekspertizasına və sınağına;

seleksiya nailiyyətinin mühafizə olunmasına;

patent verilməsinə;

patentin qüvvədə saxlanılmasına.

Rüsumlar sifarişçi, patent sahibi və bu işlərin aparılmasında maraqlı olan fiziki və hüquqi şəxslər tərəfindən ödənilir.

Rüsumların miqdarı, ödənilmə müddəti, habelə bu sahədə tətbiq olunan güzəştlər Azərbaycan Respublikasının qanunvericiliyi ilə tənzimlənir.

## V I f ə s i l
## SELEKSİYA İŞİNƏ DÖVLƏT HİMAYƏSİ

### **M a d d ə 2 8 .** Patent sahibinin gəliri və müəlliflərin mükafatlandırılması[9]

Patent sahibinin gəliri seleksiya nailiyyətlərinin istehsalatda istifadəsindən və lisenziyaların satılmasından daxil olan ödəmələr hesabına formalaşır. Seleksiya nailiyyətinin istifadəsi və lisenziyaların satışına görə ödənilən haqqın miqdarı tərəflər arasında bağlanmış lisenziya müqavilələri ilə müəyyən edilir.

Seleksiya nailiyyətinin müəllifi patentin qüvvədə olduğu müddətdə seleksiya nailiyyətinin istifadəsinə görə patent sahibindən mükafat almaq hüququna malikdir. Mükafatın miqdarı lisenziyaların satılmasından daxil olan gəlir də əlavə olunmaqla, patent sahibinin seleksiya nailiyyətinin istifadəsinə görə əldə etdiyi illik gəlirin on beşfaizindən az olmamaq şərti ilə tərəflər arasında bağlanmış müqaviləyə əsasən müəyyən olunur.

Seleksiya nailiyyəti bir neçə müəllif tərəfindən yaradılarsa, mükafat onların nailiyyətin yaranmasında iştirak etdikləri pay nisbətlərinə görə bölünür.

Mükafat müəlliflərə seleksiya nailiyyətinin istifadə olunduğu hər ilin sonunda üç aydan gec olmayaraq verilir.

Sort müəllifinə və patent sahibinə toxumdan istifadəyə görə müvafiq olaraq mükafatın və haqqın ödənilməsi qaydası müvafiq icra hakimiyyəti orqanın tərəfindən müəyyən edilir.

### **M a d d ə 2 9 .** Seleksiya işinin dövlət tərəfindən həvəsləndirilməsi

Məqsədli dövlət proqramları əsasında seleksiya işlərinin və fundamental tədqiqatların aparılması, genofondun qorunması üçün həyata keçirilən əsaslı tədbirlər, beynəlxalq simpoziumların keçirilməsi, kataloqların, metodik təlimatların, bülletenlərin və elmi hesabatların nəşri Azərbaycan Respublikasının dövlət büdcəsindən maliyyələşdirilir.

Patent sahibi və müəlliflərin seleksiya nailiyyətlərindən əldə etdikləri gəlirin vergiyə cəlb edilməsi Azərbaycan Respublikasının müvafiq qanunvericiliyinə uyğun həll edilir.

## V I I f ə s i l
## BEYNƏLXALQ ƏMƏKDAŞLIQ

### **M a d d ə 3 0 .** Xarici dövlətlərə patent üçün ərizə vermək hüququ

Azərbaycan Respublikasının fiziki və hüquqi şəxsləri seleksiya nailiyyətlərinin patentləşdirilməsi ilə əlaqədar xarici dövlətlərin müvafiq orqanlarına ərizə vermək və patent almaq hüququna malikdirlər.

Patent almaq üçün xarici dövlətə ərizə verən şəxslər Azərbaycan Respublikasının səlahiyyətli orqanına məlumat verməlidirlər.

Seleksiya nailiyyətlərinin xarici dövlətlərdə patentləşməsi ilə əlaqədar çəkilən xərclər ərizəçi tərəfindən ödənilir.

### **M a d d ə 3 1 .** Xarici dövlətlərin fiziki və hüquqi şəxslərinin Azərbaycan Respublikasında patent üçün ərizə vermək hüquqları

Xarici dövlətlərin fiziki və hüquqi şəxsləri seleksiya nailiyyətlərinin patentləşməsi üçün Azərbaycan Respublikasının səlahiyyətli orqanına ərizə vermək hüququna malikdirlər.

Xarici dövlətlərin fiziki və hüquqi şəxslərinin sifariş verdiyi seleksiya nailiyyətlərinin Azərbaycan Respublikasında patentləşməsi Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun həyata keçirilir.

### **M a d d ə 3 2 .** Beynəlxalq müqavilələr

Azərbaycan Respublikasının beynəlxalq müqavilələrində seleksiya nailiyyətlərinin sınağı, mühafizəsi və istifadəsi üzrə müəyyən edilmiş qaydalar bu Qanunda nəzərdətutulmuş qaydalardan fərqlənərsə, beynəlxalq müqavilələrin qaydaları tətbiq olunur.

## V I I I f ə s i l
## SELEKSİYA NAİLİYYƏTLƏRİ HAQQINDA QANUNVERİCİLİYİN POZULMASINA GÖRƏ MƏSULİYYƏT VƏ MÜBAHİSƏLƏRİN HƏLLİ

### **M a d d ə 3 3 .** Qanunvericiliyin pozulmasına görə məsuliyyət

Hüquqi və fiziki şəxslər tərəfindən:

istehsal olunan və satılan seleksiya nailiyyətinə qeydiyyatda olan adından fərqli ad verilməsi;

istehsal olunan və satılan seleksiya nailiyyətinə bilərəkdən başqa qeydiyyatda olan sortun və cinsin adı verilməsi;

istehsal olunan və satılan seleksiya nailiyyətinə verilən ad qeydiyyatda olan başqa nailiyyətin adına həddən artıq oxşar olub onların arasında çaşqınlıq yaradılması;

lisenziya müqaviləsi bağlamadan seleksiya nailiyyətindən istifadə edilməsi;

istehlakçını bilərəkdən aldadaraq patent alınmış seleksiya nailiyyətinin başqa ad altında satılması;

seleksiya nailiyyətlərinin sertifikatsız satılması;

dövlət reyestrində, ərizə, ekspertiza, sınaq sənədlərində yanlış qeydlər aparılması;

qanunvericiliyin yerinə yetirilməsi üçün saxta sənədlər hazırlanması, saxta sənədlərin hazırlanmasına göstəriş verilməsi və qanunvericiliyə zidd olan digər fəaliyyət növləri Azərbaycan Respublikasının qanunvericiliyi ilə məsuliyyətə səbəb olur.

Seleksiya nailiyyətləri haqqında qanunvericiliyin pozulmasında təqsirkar olan vəzifəli şəxslər və vətəndaşlar Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdətutulmuş qaydada məsuliyyət daşıyırlar.

### **M a d d ə 3 4 .** Mübahisələrin həlli

Seleksiya nailiyyətlərinin ekspertizası, sınağı, istifadəsi ilə əlaqədar mübahisəli məsələlər Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq məhkəməqaydasında həll olunur.

**Azərbaycan Respublikasının Prezidenti Heydər ƏLİYEV**

Bakı şəhəri, 15 noyabr 1996-cı il
№ 197-IQ

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 8 fevral 2000-ci il tarixli 808-IQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000-ci il, № 3, maddə 143**)
2. 01 fevral 2007-ci il tarixli 236-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu(**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, № 5, maddə 397**)
3. 01 fevral 2013-cü il tarixli **551-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Respublika" qəzeti, 12 mart 2013-cü il, № 55; "Azərbaycan" qəzeti, 16 mart 2013-cü il, № 59, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, № 03, maddə 207**)
4. 22 oktyabr 2013-cü il tarixli **773-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Respublika" qəzeti, 27 noyabr 2013-cü il, № 260; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, № 11, maddə 1288**)
5. 20 dekabr 2022-ci il tarixli **733-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 9 fevral 2023-cü il, "Azərbaycan" qəzeti, 10 fevral 2023-cü il, № 30, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023-cü il, № 2, maddə 186)**

## QANUNA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 8 fevral 2000-ci il tarixli 808-IQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000-ci il, № 3, maddə 143**) ilə 3-cü maddənin "b" bəndi yeni redaksiyada verilmişdir. Əvvəlki redaksiyada deyilirdi:

~~b) fərqlilik;~~

~~Ərizə verilən tarixə qədər mövcud olan digər məlum seleksiya nailiyyətlərindən fərqlənməlidir.~~

~~İstehsalatda istifadə olunan, rəsmi kataloqa və məlumat fonduna daxil olan və ya dərc edilən elmi əsərlərdən birində dəqiq təsviri verilmiş seleksiya nailiyyəti məlum hesab olunur.~~

~~Seleksiya nailiyyətlərinin səciyyəvi və fərqli xüsusiyyətlərinin əlamətləri müqayisəyə və dəqiq təsvir etməyə imkan verməlidir.~~

[2] 01 fevral 2007-ci il tarixli **236-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu(**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, № 5, maddə 397**) ilə 3-cü maddənin "b)" bəndinin beşinci abzasında "**Seleksiya nailiyyətlərinin səciyyəvi və fərqli xüsusiyyətlərinin əlamətləri**" sözləri "**Seleksiya nailiyyətlərinin səciyyəvi xüsusiyyətlərinin fərqlilik əlamətləri**" sözləri ilə əvəz edilmişdir.

[3] 8 fevral 2000-ci il tarixli 808-IQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000-ci il, № 3, maddə 143**) ilə 4-cü maddə yeni redaksiyada verilmişdir. Əvvəlki redaksiyada deyilirdi:

~~**M a d d ə 4 .** Seleksiya nailiyyətlərinin obyektləri və subyektləri~~

~~Seleksiya işində istifadə olunan bitki sortları, heyvan cinsləri, onların hibridləri, xəttləri, krossları, klonları, toxumları, yumurtaları, rüşeymləri və digər hissələri seleksiya nailiyyətlərinin obyektləridir.~~

~~Genofond ehtiyatına sahiblik edən və seleksiya nailiyyətlərinin subyektləridir.~~

[4] 01 fevral 2013-cü il tarixli **551-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Respublika" qəzeti, 12 mart 2013-cü il, № 55; "Azərbaycan" qəzeti, 16 mart 2013-cü il, № 59, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, № 03, maddə 206**) ilə 6-cı maddəsinin onuncu hissəsinə üçüncü abzasdan sonra yeni məzmunda abzaslar əlavə edilmişdir.

[5] 20 dekabr 2022-ci il tarixli **733-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 9 fevral 2023-cü il, "Azərbaycan" qəzeti, 10 fevral 2023-cü il, № 30, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023-cü il, № 2, maddə 186)** ilə 6-cı maddəyə yeni məzmunda on ikinci hissə əlavə edilmişdir.

[6] 20 dekabr 2022-ci il tarixli **733-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 9 fevral 2023-cü il, "Azərbaycan" qəzeti, 10 fevral 2023-cü il, № 30, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023-cü il, № 2, maddə 186)** ilə 9-cu maddənin birinci hissəsinə "**sənədlərin olub-olmaması**" sözlərindən sonra "**(bu Qanunun 6-cı maddəsinin on ikinci hissəsinin tələbləri nəzərə alınmaqla)**" sözləri əlavə edilmişdir.

[7] 22 oktyabr 2013-cü il tarixli **773-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Respublika" qəzeti, 27 noyabr 2013-cü il, № 260; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, № 11, maddə 1288**) ilə 12-ci maddəsinə yeni məzmunda ikinci hissə əlavə edilmişdir.

[8] 8 fevral 2000-ci il tarixli **808-IQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000-ci il, № 3, maddə 143**) ilə 16-cı maddə yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~**M a d d ə 1 6 .** Patent sahibinin hüquqları~~

~~Patent sahibinə seleksiya nailiyyətindən müstəsna istifadə etmək hüququ verilir və bu hüquq dövlət tərəfindən qorunur. Patent sahibinin icazəsi olmadan seleksiya nailiyyətindən istifadə edilə bilməz.~~

~~Patent sahibi patent hüququnu tamamilə və ay qismən başqa hüquqi və fiziki şəxslərə sata, bağışlaya və istifadəyə verə bilər. Belə hallarda patent sahibi ilə həmin şəxslər arasında müvafiq qaydada lisenziya müqaviləsi bağlanır.~~

~~Seleksiya nailiyyətindən istifadəyə görə bütün fiziki və hüquqi şəxslər patent sahibindən aşağıdakı fəaliyyət növlərinə icazə almalıdır:~~

~~istehsala və təkrar istehsala;~~

~~artırmaq məqsədilə lazımi kondisiyaya çatdırmağa;~~

~~satışa və başqa növ təsərrüfat dövriyyəsinə daxil etməyə;~~

~~ixraca və idxala;~~

~~yuxarıda göstərilən məqsədlər üçün saxlanılmasına.~~

~~Bitki materialı və damazlıq ehtiyatı patent sahibinin razılığı olmadan, onun sahibi olduğu seleksiya nailiyyətindən alınıbsa, patent sahibinin hüququ və bitki materialına və damazlıq ehtiyatına da aid edilir.~~

~~Seleksiya nailiyyətindən aşağıdakı məqsədlər üçün istifadə edilərkən patent sahibinin hüququ pozulmuş hesab olunmur:~~

~~şəxsi və qeyri-kommersiya məqsədləri üçün;~~

~~təcrübə-sınaq məqsədləri üçün;~~

~~tranzit daşınma və əmtəəlik məhsul emal edilməsi üçün.~~

~~Patent hüququ Azərbaycan Respublikasının qanunvericiliyində müəyyən olunmuş qaydada vərəsələrə keçir.~~

[9] 01 fevral 2007-ci il tarixli **236-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu(**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, № 5, maddə 397**) ilə 28-ci maddəyə **beşinci** hissə əlavə edilmişdir.